## ƏDƏBİ FRAQMENTLƏR

# BİR POEMA, İKİ HEKAYƏ, ÜÇ ŞEİR



*Vaqif YUSİFLİ*

### BİR POEMA

Son illərin ədəbiyyatında poema janrı şeirlə müqayisədə nisbətən az nəzərə çarpır. Halbuki, vaxtilə poeziyanın sanbalını, hətta bəzi məqamlarda ədəbiyyatın ağır yükünü çiynində daşıyan bir ədəbi növ kimi poemalar həlledici rol oynayırdı. Əlbəttə, burada həyəcan siqnalını səsləndirmək gülünc olardı, çünki hansı bir janrınsa üstünlüyü şərti məsələdir. Amma deyə bilərlər ki, XXI əsr çox böyük ictimai-siyasi hadisələrlə, xalqımızın həyatında fırtınalarla dolu bir zamandır, bu isə böyük epik ya epik-lirik poemaların yazılmasına şərait yaratmırmı? Doğrudur, şeir poeziyanın üzərinə düşən bütün vəzifələri - fəlsəfi, ictimai, mənəvi missiyaları mümkün qədər özünün palitrasında əks etdirməyə çalışır, amma nə «Şəhidlər», «Gülüstan» (B.Vahabzadə), nə «Nəsimi» (Qabil), nə «Atamın kitabı» (M.Araz), nə «Günəşin bacısı» (N.Xəzri), nə «Üçüncü atlı» (Ə.Kərim), nə «İnqilab» (F.Qoca), nə «Cavad xan (S.Rüstəmxanlı), nə də «Böyüdülmüş şəkillər» (İ.İsmayılzadə) kimi poemalar niyə az yazılır ya heç yazılmır? Amma bu o demək deyil ki, biz poema janrının süqutundan söz açaq. Yenə də «poeziyanın romanı» sayılan poemalar yazılır , burada Sabir Rüstəmxanlının,Vaqif Bəhmənlinin, Rəfail Tağızadənin, Musa Ələkbərlinin, Balayar Sadiqin, Elçin İsgəndərzadənin son illərdə yazdıqları poemaları misal göstərə bilərik. Ramiz Qusarçaylının «Vətən» poeması isə bizim fikrimizcə, son illərin ədəbi hadisəsidir.

Əlbəttə, poema yazmaq, özü də bu janrla ədəbiyyatda uğur qazanmaq göründüyü qədər də asan məsələ deyil. Bu böyük yaradıcılıq istedadı tələb edir- Səməd Vurğunun «Komsomol poeması», Rəsul Rzanın «Qızılgül olmayaydı», Bəxtiyar Vahabzadənin «Gülüstan» poemalarının timsalında bunun əyani şahidiyik. Vaxtilə Əliağa Kürçaylı yazırdı: «Poema poeziyanın ən ali zirvəsidir və deməli, burada istedadın dərəcəsi, şairin stixiyası əsas şərtdir. Ədəbiyyat tarixi Nizami mövzusunda neçə-neçə «Leyli və Məcnun» müəllifi tanıyır. Lakin bu sənətkarlardan bir neçəsi Nizami qanadlarının qüdrətli kölgəsindən xilas ola bilmişdir, onlardan da biri və birincisi Füzulidir». Yeri gəlmişkən qeyd edək ki, Əliağa Kürçaylı irili=xırdalı 25 poemanın müəllifi idi və zamanına görə Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, NərimanHəsənzadə də də ondan geri qalmamışlar və bu ustad şairlər təkcə gözəl şeirləri ilə deyil, poemaları ilə də ədəbiyyat tarixində silinməz iz buraxmışlar.

Bu gün poema janrına mütəmadi olaraq müraciət edən bir şair var ki, o, yaradıcılığının demək olar ki, əsas istiqamətini bu sahəyə yönəldib. Redaktoru olduğu «Kredo» qəzetində azı hər iki-üç nömrədən bir onun poemaları işıq üzü görür. 25 il ərzində 40-a yaxın poema çap etdirib. Əlbəttə, bu 40 poemanın heç də hamısı bədii sənətkarlıq baxımından eyni səviyyədə deyil, bu da təbiidir. Amma Əli Rza Xələfli poema janrının təbiətini, yəni həyat hadisələni, duyduğu və müşahidə etdiklərini, janrın özünəməxsus tələblərini, insan xarakterini əks etdirən konfliktləri və hər şeydən əvvəl bədiilik prinsiplərini lazımınca qavrayıb, mənimsəyib. Onun «Bir Xələfli var imiş», «İçəri-şəhər-daşlar, insanlar», «Anamın nağılı», «Azadlığın qanı», «Bir çinar hekayəsi», «Söhrab Tahirə məktub», «Ölməyən sevginin dastanı» poemaları müxtəlif mövzuları əhatə etsə də, həmin özünəməxsus tələblərə əməl edilmişdir. Məktub - poema, Qəsidə - poema, Fəxriyyə - poema, Dastan - poema - bu adlar poemaların hansı strukturda müəyyənləşdirilməsini nəzərə çarpdırır. Onun bütün poemaları lirik səpgidə qələmə alınıb və hər birini lirik düşüncələr müşayiət edir.

Təbii ki, Əli Rza Xələflinin istinad etdiyi mənbələr və təsirləndiyi ustad şairlər var. Bu cəhəti onun poemalarından söz açan Abbas Hacıyev, Təyyar Salamoğlu, Şəddad Cəfərov, Tariyel Abbaslı da qeyd etmişlər. Amma M.Şəhriyardan təsirlənmə heç də təqlidçiliyə, ustadı yamsılamağa aparıb çıxarmır, sadəcə, ustad şairin vətən sevgisindən, «Heydərbabaya salam» ideyalarından qaynaqlanmaqdır.

Əlbəttə, Əli Rza Xələflinin bütün poemalarından söz açmağı qarşımıza məqsəd qoymamışıq. Onun əksər poemalarının aparıcı xətti Yurd Sevgisi -vətənpərvərlik ideyasıdır. Bu sevgi və ideya onun «Yaddaş yanğısı» poemasında daha bariz şəkildə əks olunub. Poema - dastan formasında qələmə alınan bu əsər 2220 misradan ibarətdir.

Poemada Əli Rza Xələfli öz doğma kəndindən, onun gözəl təbiətindən, burada yaşayan insanlardan, onların hər birinin peşəsindən, sənətindən, insani keyfiyyətlərindən, kəndin etik - tnoqrafik - mədəni, davranış xüsusiyyətlərindən, keçmişindən və indisindən doyunca söz açır. Əli Rza Xələfli kəndin işğal altında olduğunu qəhərlə, boğazına tıxanan kədərlə xatırlayır , o zaman Xələfliyə getmək imkanı yox idi, amma yaddaş var, bu yaddaşın yanğısıyla səyahətə çıxır. Yurd yeri Xələflinin yolları, cığırları, dərələri, təpələri, Xələf dağı, Xudafərin körpüsü, Şirvan bulağı bircə-bircə xatırlanır. Amma ümumiləşdirmə meyarı ilə yanaşsaq, Əli Rza Xələfli bir kəndin timsalında Azərbaycan kəndinin obrazını yaratmağa çalışmışdır.. Poemanı oxuyan hər kəs Xələfli timsalında öz kəndini görə bilirsə, bu, şairin uğurudur. Poemada təsirli və emosional səhnələr bir-birini əvəz edir, şair bulaqlara, çaylara, ağaclara üz tutur, işğal altında olan kəndinin - yurd yerinin ağrısını çəkir:

Axır ki, gəlmişəm, Şirvan bulağı,
Niyə nağmələrin qeybə çəkilib?
İndi hansı arxdan alım sorağı,
Yerində bir ölü sükut əkilib.

Başına dolanım, yanan çinarım,
Adına yaşımın çağı əkilib.
Başına qarğalar qonan çinarım,
Qürurum, vüqarım yoxa çəkilib.

Ay çinar qardaşım, bir xahişim var,
Yön ver, evimizin dərdini görüm;
Görən danışırmı uçuq daş-divar?
Şəhid divarların mərdini görüm.

Baxıram, bu çinar, bu da evimiz,
İyirmi addımlıq yol var arada..
Sızlayıb torpaqda, suda evimiz,
Sızlayıb evimiz dərddə, yarada.

Uçuq divarların yerində indi,
Kədər tüstülənir, qəmlər yanırdı.
Viranə qəlbimin şəhəri, kəndi,
Burda yaddaş-yaddaş alovlanırdı.

«Yaddaş yanğısı»nda Xələfli kəndinin demək olar ki, bütün sakinləri (keçmişin və indinin) xatırlanır, hər birinin xarakterik bir xüsusiyyəti, peşəsi-sənəti - insani keyfiyyətilə. Bax, burada deyə bilərik ki, Əli Rza Xələfli «Heydərbabaya salam» - Şəhriyar yolu ilə gedib, çünki təsvir olunan məkan -kənd adamlarsız heç nədir. Bu adamların çoxu Vətən uğrunda döyüşlərə yollanıb, həlak olublar. Elə unudulmayan insanlar var ki, Əli Rza onların obrazını yaradır - Rövşən həkim - Telman sənətçi. Amma ən çox yada salınan ağsaqqallar, ağbirçəklərdir - Zal kişi, Zülfü nənə.

Vaxtilə Məmməd Araz «Atamın kitabı»nı yazmışlı və bu kitabda Ata və Kənd obrazında Vətən obrazını canlandırmışlı. Əli Rza Xələfli də «Yaddaş yanğısı»nda Kənd obrazında Yurd yeri obrazını yaratdı.

### İKİ HEKAYƏ

Xalq yazıçısı Elçin Əfəndiyev keçən əsrin yetmişinci illərində «Şeir axını. Nə etməli» adlı həyəcan siqnalı doğuran bir məqalə yazmışdı. Deyək ki, o məqalədə şeir axını məsələsi heç də gündəmdən düşməyib. Şeir axını indi də davam edir. Yenə də şeirdə kütləvilik halları, hamının qələmə sarılıb mətbuat səhifələrində «şairlik» peşəsinə yiyələnməsi adi hala çevrilib. Amma son iyirmi ildə bəlkə cüzi müvazinətlə hekayə axını da baş alıb getməkdədir. «Azərbaycan», «Ulduz» jurnallarında, «Ədəbiyyat qəzeti»ndə, digər mətbu orqanlarında da xeyli sayda hekayələr çap olunur. Bunun nəyi pisdir ki? Nəsrin bu operativ janrına müraciət həyatın, gerçəkliyin, insan düşüncələrinin epik formada ifadəsindən, yeni obrazların canlandırılmasından və bədii formada təqdim edilməsindən ibarətdirsə... Amma hekayə axınını çaydakı selə bənzətsək, bu sel özüylə həm də çör-çöp yığını ilə gözə dəyir. Amma o selin gur axınında çör-çöplər təmiz və saf suların axınında itib-batır.

Biz həmişə hekayədən söz açanda Azərbaycan bədii nəsri üçün şedevr hesab olunan əsərlərin adlarını çəkirik. Mirzə Cəlilin «Poçt qutusu»nu, «Qurbanəli bəy»ini, «Usta Zeynal»ını, Haqverdiyevin «Şeyx Şaban»ını, Çəmənzəminlinin «Cənnətin qəbzi»ni, sonrakı illərdə isə Mirzə İbrahimovun, Süleyman Rəhimovun, Mir Cəlalın, Əbülhəsənin, Ənvər Məmmədxanlının, İlyas Əfəndiyevindaha sonra İsmayıl Şıxlının, İsa Hüseynovun, Yusif Səmədoğlunun, Anarın, Elçinin, Əkrəm Əylislinin, İsi Məlikzadənin, Mövlud Süleymanlının, Vaqif Nəsibin, Qərib Mehdinin, Məmməd Orucun, Seyran Səxavətin, Afaq Məsudun, Aydın Tağıyevin hekayələrini xatırlayayırıq. Amma bu ənənəni yeni ədəbi nəsil davam etdirir və deyə bilərik ki, onların yaradıcılığında hekayə janrı özünün yeni bir dönəmini yaşayır. Alpay Azərin «Bubu və qatar», Xumar Ələkbərlinin «Lal xoşbəxtlik», Vüsal Nurunun «Xəyal məhkumu», Nihat Pirin «Bir kəndin manifesti», Tərанə Vahidin «Durna adam»,Orxan Həsəninin «Çiy balıq», Orxan Cuvarlının «Güzgü», Sərdar Aminin «Atamın əlləri», Həmid Piriyevin «Şanapipik haqqında mahnı», Nadir Yalçının «Nina Nikolayevna», Rəvan Cavidin «Dəvələr, atlar, şarlar», Günel Mehrinin «Doğuluş», Təvəkkül Boysunarın «Uğursuz gün», Həcərin «Cehiz pulu», Vəfa Mürsəlqızının «Səs», Səma Muğannanın «Bənövşə və işıq qatarı» hekayələri həyata bədii münasibətin yeni çalarlarını əks etdirir. Əlbəttə, adını çəkdiyimiz bu hekayələrin bəzi qüsurlarından da söz aça bilərik. Ən başlıca qüsur : hadisə var, nəqletmə, təhkiyə tərzi də öz axarınca gedir, amma bu günün real həqiqətlərini əks etdirən obrazlara nadir hallarda təsadüf edirik.

Bu yazıda yeni nəsil hekayəçilərinin yaradıcılığı barədə geniş söz aça bilmədik (bu başqa bir məqalənin mövzusudur). Amma iki müəllifin - Xanım Aydının və Mirmehdi Ağaoğlunun bizim üçün maraqlı təsir bağışlayan hekayələri haqqında qısaca söz demək istərdik.

*(Davamı 9-cu səhifədə)*

## ƏDƏBİ FRAQMENTLƏR

# BİR POEMA, İKİ HEKAYƏ, ÜÇ ŞEİR

*(Əvvəli 8-ci səhifədə)*

«İkimiz» hekayəsində Xanım Aydın bir sevgi hekayəsini nəql edir. Mən və O - hekayənin qəhrəmları bunlardır. Hekayədəki Mənin ilk etirafı: «Onunla ömrünün tən ortasında görüşdük. Elə qəfil, elə gözlənilməz oldu ki... əslində, bir-birimizi çoxdan tanıyırdıq. Amma sevgi hələ ömrün ortasında gəldi. Elə gəldi, nə o bildi, nə də mən. Bir də baxdıq ki, bir-birimiz olmadan mümkün deyil. Qoxusuna, istisinə aşiq idim. Bilirdim ki, o da mənim kimi». Və bu etiraflar hekayənin sonuna qədər davam edir. İlk baxışda elə görünür ki, əgər bir qadının etirafları- sevdiyi insanla səmimi münasibətləri, hər ikisinin - Mən və Onun - qarşılarında ciddi bir çarpıntının olmaması varsa, bu anlaşıqlı sevgi hekayəsi nəyi təbliğ edir? Biz əksər sevgi hekayələrində sonu məyusluqla ya ayrılıqla bitən situasiyalarla qarşılaşmışıq. Amma Xanımın hekayəsində ayrılıqla bitən - birinin peşimançılığı və məyusluğu ilə başa çatan vəziyyətlə üzləşmirik. Bu hekayə ayrılıq haqqında yox, SEVGİ barədədir. İnsan necə sevir və bu sevgidə nəyə can atır, MƏN və Onu birləşdirən hansı mənəvi tellərdir? Sevənləri bir-birinə cəlb edən nədir - xasiyyətmi, mənəvi aləmlərinin doğmalığımı, zahiri gözəllikmi, bir-birini elə ilk baxışda dərk edib anlaşmaqmı? «deyirdim ona ki, bu yaş ən gözəl yaşdır. Gənc deyilik, yeniyetmə deyilik, bu gün sevək, sabah bir-birimizdən bezək, peşman olaq. Yaşımızın da, sevgimizin də kamil çağını yaşayırıq... Gülürdü... Ona sevgim ruhi bağlılıq idi. Lap dərindən, daxildən gəlirdi Sevgimi bütün hüceyrələrimdə hiss edirdim. Təpədən- dırnağa ona dönmüşdüm, ona çevrilmişdim». Burada «ruhi bağlılıq» ifadəsinə diqqət yetirsək, hekayənin məğzi aydınlaşar.

«İkimiz» hekayəsində emosional bir dramatizm var. Bu dramatizmi şərtləndirən MƏNin hissləri-həyəcanlarıdır. «Çox da mənə deyirsən ki, güclü adamsan. Mən sənsizliyə yetəcək gücümü sənə göstərmək istəmirəm. Mən sənin yanında sevgimi göstərmək istəyirəm, bağlılığımı, lap qarşında zəifliyimi, zərifliyimi göstərmək istəyirəm, amma sənsizliyə çatacaq gücümü yox... yox.. yox.. Sənin bircə sözün yetər ki, nəfəs alım».

Hekayənin sonu bu cümlə ilə bitir: Bircə bilirəm ki, onu çox, eləcə çox sevirəm».

Mirmehdi Ağaoğlunun «Günahkar» hekayəsi... Bu müəllif artıq yetkin nasirdir və onun hər hansı bir hekayəsini oxuyanda qarşında bitkin, həyat həqiqətlərini bədii həqiqətə çevirmək gücündə olan bir yazıçı ilə qarşılaşırsan. Tənqidçi Elnarə Akimova «Mirmehdi Ağaoğlunun «Həcc gündəliyi», yaxud «Bu vüsalə yuxu əhvalı demək mümkün idi» məqaləsində Mirmehdinin yazıçılıq «palitrasındakı» incəlikləri, bədii naxışları nəzərə çarpdırıb. Onun «Günahkar» hekayəsi bir yazıçının gün-güzəranından söz açır və hekayə boyu o yazıçının çoxumuzun taleyində iz buraxan, acılıqlar yaradan taleyi ilə üzləşirsən. O yazıçı bir hekayəsini bitirə bilmir. «Yaza bilməməyimin bir səbəbi də məişət qayğıları idi. Məni yazmaqdan aralı salmaq üçün bəhsə girmişdilər, işin birini qaydasına qoyurdum, o biri yaranırdı. Görəsən, kimdənsə borc istəyimmmi? Axı kimdən?».

İstər-istəməz Abbas Səhhətin bu misraları yada düşür: «Ürəyimdə daha yox qönçə dodaqlar dərdi. Vardır ev dərdi, qadın dərdi, uşaqlar dərdi». Mirmehdinin təsvir etdiyi yazıçı da eyni yoxsulluq içində çapalayır. Onun hekayəsində sərt həqiqət açıqlanır- həyat yanğısı, yazmaq ehtirası varkən, bu yanğı və bu ehtiras gün-güzəran bataqlığına sürüklənir. «Nəticə göz qabağında: qayğılar həndəsi silsilə ilə artırdı və məişət bataqlıq kimi özünə çəkirdi adamı, bir dəfə girdinmi, çıxmaq mümkünsüz idi. Nə qədər belə yazıçı görmüşəm. Ömürlərinin ən enerjili vaxtında məişət qayğılarına yuvarlanıblar, elə orda da ilişib qalıblar». Burada sovet dövründəki ədəbi tənqid sxemi ilə nə Mirmehdi Ağaoğlunu, nə də onun qəhrəmanını günahlandırmaq fikrində deyilik, niyə Mirmehdi Ağaoğlu belə bir gücsüz, passiv qəhrəman obrazı yaradıb və niyə onun qəhrəmanı bu qədər acizdir, niyə o, mübariz deyil. Amma həyatda, yaşadığımız gerçəklikdə belə mənəvi çətinliklər, maddi sıxıntılar içərisində yaşayanlar azmıdır? Mirmehdi Ağaoğlu da «həyatın dibində» olan belə bir insanı hekayəsinə gətirib.

33 yaşını qeyd etməyə maddi imkanı çatmır bu yazıçının. Və o fikirləşir ki, İsa onun yaşında peyğəmbərliyini bitirib çarmıxa çəkilmişdi. Lermontov «Zəmanəmizin qəhrəmanı» yazıb 27 yaşında ölmüşdü. və s. Amma acı bir etiraf da səslənir: «Əlimdə üzə tutası beş-altı hekayə vardı, vəssalam. Guya özümü yaradıcılığa həsr etmək üçün vaxtı ilə maddi uğurların çoxundan əl çəkmişdim, ortada nə yumurta var, nə fal».

Hekayədə bir simvolik obraz da var - Yağış. «bədbin ovqat əl çəkmirdi. Deyəsən, yağışa görə idi, ya da ad gününə görə. Havada hələ də bozumtul həlməşik ovqat qalmaqda idi Yağış havanı sıyığa döndərmişdi, pəncərədən baxdıqca nəfəsim daralırdı, yavaş-yavaş bədbin bir tablonun içinə düşürdüm». Və hekayənin sonuna qədər bu yağış o yazıçıdan əl çəkmir.

Mirmehdi Ağaoğlu hər hansı hekayəsində olduğu kimi, bu hekayədə də psixologizmə meyl edir, bir-iki dialoq nəzərə alınmazsa, yazıçı (obraz) öz içindən, daxilindən gələn səslə danışır. Özü-özünü mühakimə edir, nəyisə etiraf edir. Süjet xətti də onun içindəki etiraflarla şaxələnir. Yazıçı öz 33 yaşını da qeyd edir, amma necə: «evi elə bir qaramat sükut bürümüşdü ki, deyəsən, ad günüm yox-, cümə axşamıydı». Hekayənin sonunda da bu «qaramat sükut» o evdən əl çəkmir.

Hekayə sona çatır. Biz bir yazıçının bir günlük həyat tərzi ilə tanış olur və nə onu, nə də Mirmehdini qınayırıq. Amma içimizdən belə bir sual doğur: Görəsən, bu nəfəsi daraldan yağışlar nə vaxt kəsəcək, nə vaxt yazmaq-yaratmaq eşqilə çırpınan yazıçı əhlindən əl çəkəcək?

### ÜÇ ŞEİR

İkinci Qarabağ müharibəsinin qazisi **Həsən Kürün** vaxtsız vəfatı hamı kimi məni də sarsıtdı. Vəfatından öncə ona zəng etdim, çap olunmayan şeirlərini mənə göndər, dedim. Söz verdi, amma göndərmədi. İncimədim, bilirdim ki, onun yaradıcılığı ilə gec-tez tanış olacağam. Elə də oldu, Azər Turan «Ədəbiyyat qəzeti»ndə onun şeirlərini dərc etdi, ondan öncə «Azərbaycan» və «Yada düşdü» jurnallarında da şeirlərini oxumuşdum.

Həsən Kürün şeirləri döyüşçü şairin keçdiyi bir şərəfli ömür yolunu xatırladır. O da yaşıdları kimi cəbhəyə yollandı, döyüşdü, sonra qələbə ilə geri qayıtdı. Elə o ağır döyüşlərdə, səngərlərdə olanda da içindəki şeir alovunu söndürmədi. Adətən, müharibə iştirakçısı olan şairlərin yaradıcılığında üç aparıcı xətt olur. Birinci xətt: Müharibənin, savaşın təsviri. Bu tonda yazılan şeirlərdə şair müharibənin onda doğurduğu hissləri, çevrəsində baş verən hadisələri qələmə alır. Həsən Kürün bu yöndə yazdığı şeirlərin sayı çox deyil, amma bir şeiri var ki, o şeirdə döyüşçü dostunun halını təsvir edir:

Biz irəli gedirik  
Səngiməyir top səsi.  
Yaralanan dostumun  
Gedib-gəlir nəfəsi  
Şükür, şükür, çox şükür!  
Yatağı buz olsa da,  
Dili susuz olsa da  
Ölməyibdi, yaşayır.  
Ölməyibdi, amma ki,  
Sol qolunun üstündə  
Kiçik qəlpə daşıyır.  
Hərdən açır sarğını,  
Baxır və gülümsəyir.  
«Bu vətənin uğrunda  
Nəsə etmişəm» deyir.  
Şükür, şükür, çox şükür!

İkinci xətt: döyüşçü-şair cəbhədən öz anasına, sevgilisinə, elinə-obasına məktublar göndərir. Azər Turan haqlı olaraq yazır ki: «Həsən Kürün əksər şeirlərini, xüsusən, «Cəbhədən məktub» şeirini ədəbi hadisə adlandırmaq olar. «Cəbhədən məktub» müharibə dövrünün poetik rəmzinə çevrilmiş «Gözlə məni» şeiri ilə yanaşı dayanmağa layiq poetik nümunədir». Həsən Kürün «Cəbhədən məktub» şeiri bir döyüşçünün dililə yazılıb və bu məktub o döyüşçünün qızına ünvanlanıb. Ön cəbhə ilə arxa cəbhənin - ata ilə qızın bir-birindən ayrılmazlığını əks etdirir bu şeir. Onu hissiz-həyəcansız oxumaq mümkün deyil:

Sən mənə şərfini göndərmə daha,  
Səngər beşik kimi istidir, qızım.  
Vətən sənin kimi suyuşirindi,  
Hamını özünə istədir, qızım.

Görsən darıxırsan, şəkillərə bax,  
Körpə əllirini boynuma dola.  
Boylan pəncərədən getdiyim yola,  
Bu məni görməyə bəs edir, qızım.

Bilim ki, sənin də günün şən keçir.  
Mən burda yaxşıyam, sən də yaxşı ol,  
İnan, göndərdiyin bütün dualar  
Gəlir başımızın üstündən keçir,  
Allah başımızın üstədir, qızım.

Üçüncü xətt: Müharibə bitir. Şair öz evinə, ailəsinə qayıdır. Təbii ki, yaradıcılığını davam etdirir. Müharibədə iştirak edən, sağ qalan azərbaycanlı şairlərin hamısının həyatında yeni dövr başlandığını bilirik. Həsən Kür də qayıtdı. Şeirləri bir çox qəzet və jurnallarda dərc olundu. Onun istedadlı bir şair kimi etiraf olunması mərhələsi başlanırdı. Müxtəlif mövzularda yazdığı şeirlər buna söz edirdi. Həsən Kür qayıdandan sonra həyati qayğılardan, daha çox içini tərpədən , onu düşündürən mətləblərdən söz açırdı. Amma şeirlərində bəzən həzin küləklər əsirdi:

Bir gün qələmin sına,  
Yox olasan, öləsən.  
Səssiz-səssiz bir küncə,  
Sıxılasan, öləsən.  
Ananın ağ saçını  
Keçirib boğazına,  
Boğulasan, öləsən.

Son şeirlərinin birindəsə yazmışdı:

Mən bu gün varamsa, sabah da yoxam,  
Yaxşı xatırlayın, uşaqlar, məni.  
Həmişə xatırlayacayıq səni, Həsən Kür.

Son söz: Həsən Kür haqqında düşünəndə nədənsə 1992-ci ilin 15 iyununda - birinci Qarabağ müharibəsində şəhid olan şair Nizami Aydını xatırlayıram. «Vətən ağrısıdır dünyanın ən böyük ağrısı» - Nizami Aydının misrasıdır. Nizami Aydın düşmən üstünə yollanan tankın içində alovlanıb yandı. Həsən Kür də dünyasını tez dəyişdi - xəstələndi, müharibədən, xəstəlikdən aldığı gərginlikdən ölüm tez döydü qapısını. Onun da ruhu göylərə çəkildi.

*"Azərbaycan" jurnalı*  
*11-ci nömrə*  
*2025*